# ***Koreyalı professor:*** "Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə çox iddialı beynəlxalq konfrans təşkil edib"



**"Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə inkişaf edən və inkişaf etməkdə olan ölkələrin "yaşıl keçid"ini dəstəkləmək üçün çox iddialı beynəlxalq konfrans təşkil edib. Bakıda keçirilən COP29 çox əhəmiyyətlidir, çünki keçid üçün lazım olan maliyyə müzakirə olunur".**

Bu sözləri AZƏRTAC-a müsahibəsində COP29-un iştirakçısı, Koreya Qabaqcıl Elm və Texnologiya İnstitutunun professoru Kim Sang-Hyup deyib.

Koreyanın sürətlə inkişaf etdiyini söyləyən Kim Sang-Hyup buna görə də onun sənayeləşmiş ölkələrdən biri olduğunu deyib: "Koreyanın artıq ətraf mühit məsələlərinə diqqət yetirməsinin vaxtıdır. Buna görə də Koreya 2008-ci ildən bəri "yaşıl məqsədlər"i birnömrəli vacib məsələ kimi həyata keçirməyə çalışır. Koreya eyni zamanda yüksək enerji tutumlu ölkədir. Yəni karbon intensiv sənaye strukturuna malikdir. Koreyanın iqtisadiyyatını karbonsuzlaşdırmağa ehtiyacı var və "yaşıl inkişaf"a, yaşıllığa doğru getdiyimiz müddətdə iqtisadi artıma güclü təsir etmək olar. COP29-un iki vacib gündəliyi var. Bunlardan biri beynəlxalq əməkdaşlığı və karbon emissiyasının azaldılmasını təşviq etmək üçün Paris Sazişinin vacib altıncı maddəsini tamamlamaqdır. Demək olar ki, biz artıq bu məsələdə uğur qazanmaq üzrəyik. İkincisi, böyük məbləğdə lazım olan maliyyənin ayrılmasıdır. Beynəlxalq təşkilatlar, bir çox ölkə bu ambisiyaya nail olmaq üçün əllərindən gələni edirlər. Ümid edirəm ki, biz də bunu həyata keçirmək üçün əlimizdən gələni edəcəyik".

Azərbaycan.- 2024.- 17 noyabr (№ 253).- S.7.